# "Teatrdan getmişəm, tədrislə məşğulam"

(əvvəli səh. 9-da)

**- Paxıllığınızı çəkənlər çoxdu?**

- O insan ki, uğur qazanmır, heç kimi günahlandırmasın. Bu, insanın özünün fərsizliyi, çalışmazlığıdı. Bu işi bacarmıramsa, gözüm niyə yuxarılarda olmalıdı? Elə insanlar var ki, sənəti yeddi-səkkiz yerə ayrılır, iddiaları çoxdu. Onlara deyirəm ki, Allah sizə ağıl versin, düşünün ki, öz üzərinizdə işləmək lazımdı.

**- Mənim üçün sevgidən başqa heç nə yoxdu -bu sözlər də sizə məxsusdu...**

- Onu cavanlıqda demişəm də (gülür). Ola bilər, düşünməmişəm, söyləmişəm.

**- Həcc ziyarətində də olmusunuz...**

- Bir çox sənətkar dostlarımla Səuidiyyədə konsertdə idik. Özümüz də istədik ki, Məkkəni, Mədinəni ziyarət edək. Arzu eləmişəm ki, qızımla Həccə gedim. Qara daşı öpəndə dua etdim ki, ya Rəbbim, torpaqlarımızı özümüzə qaytar. İkinci arzumsa özümə aid olan şeylərdi.

**- Hobbiniz nələrdi?**

- Hobbim elə sənətimdi. Bizim işimiz-gücümüz elə oxumağımızdı. Məncə, bizim işimiz qədər mükəmməl iş yoxdu. Sadəcə olaraq iki-üç ifaçı bu sənəti korlayır...

**- Hansı arzularla yaşayırsınız?**

- Əsas arzum budur ki, işğal olunmuş torpaqlarımız qaytarılsın. Novruz bayramı günlərindəyik. O vaxtlar Novruz bayramı çox gözəl keçirilirdi. Mən evimizdən çıxandan sonra o hissləri görməmişəm. O hissləri şəhərdə yaşaya bilmirəm. Birinci çərşənbədən başlayırdı bayram əhval-ruhiyyəsi, elə bil, insanın ruhu dəyişirdi...

**- Telekanallara çox dəvətlər alırsınız?**

- Onundan birinə gedirəm. Çox təəssüflər olsun ki, aparıcıların səviyyəsi çox aşağıdı. Kiminlə nə cür danışdıqlarını bilmirlər. Bir insan kimi aparıcıların danışıqları, hərəkətləri məndə qıcıq yaradır. Müəyyən verilişlərə heç getmirəm. Deyirəm ki, evdə oturum, amma o insanlarla əlaqədə olmayım.

**- Konsert vermək planınız varmı?**

- Konsert vemək arzularım həmişə olub. Bugünkü gündə hər şey maddiyyata bağlanıb. İnşallah, qismət olsa, konsert verəcəyəm.

**- Toylarla bağlı vəziyyət necədir?**

- Arada toylara dəvətlər alınq. Qonorar qane edəndə də gedirik. Xanəndənin repertuarı nədi, onu oxuyuruq.

**- Sənət aləmindəki qalmaqallara necə baxırsınız?**

- İllərlə bu sənətə qulluq edən insanlar gərək bu davalara çəkilməsin. Söhbət olanda çalışsınlar onu bir qıraqda çözsünlər. Bunu efirə daşımaq, mətbuata çıxarmaq sənətkarı bir az ucuzlaşdırır.

**- Bəzi sənətkarlar gözəl görünmək üçün əməliyyat elətdirirlər. Siz də plastik əməliyyat etdirdinizmi?**

- Vaxtı gələndə eləyərik. Amma hələ özümdə o şeyləri hiss etmirəm. Bugünkü dövrdə evdə oturan xanımlar o qədər işlərlə məşğuldurlar ki, azından müğənnilər onları eləmirlər. Gözdə biz oluruq deyə, topa, atəşə tuturlar. Mənim tanıdığım ev qadınları var ki, hər bir estetik əməliyyatlardan çıxırlar. Buna normal baxıram. Amma hər şeyin çərçivəsi var da. Bir də görürsən ki, 60-70 yaşında qadını pis günə qoyuralr. Hər yaşın öz cizgiləri olmalıdı.

**- Yaxın vaxtlarda hansı kitabı oxumusunuz?**

- Axırıncı dəfə Şuşa haqqında bir kitab oxumuşam. Bir az gözüm zəifləyib. Bir neçə qəşəng kitab veriblər mənə. Yataq otağında üst-üstə bir neçə kitab var. Yayda onları oxuyacağam. Kitab oxumağa vaxt çatmır.

**- Teatrla, kino ilə aranız necədi?**

- Bir ildi tamaşalara getmirəm. Amma tamaşaları sevirəm. Kinonu da sevirəm. Daha çox qəhrəmanlıq filmlərini, tarixi filmləri sevirəm.

**- İdmanla məşğul olursunuz?**

- Gündəlik rejimim var. Yarım saat-qırx dəqiqə küçədə gəzməliyəm. Saatlarla trenajorda yox, havada olmağı çox sevirəm.

**- Hansı yeməkləri bişirirsiniz və sevirsiniz?**

- Gözəl yeməklərimiz var: aş, dolma, çığırtma, dovğa. Hər həftə evdə belə şeylər olur.

**- Çox əsəbiləşdirirlər sizi? Əsəbiləşəndə nə edirsiniz?**

- Hər kəs kimi bir az danışıram, yoruluram. Dərdimi insanlarla bölüşməyi çox xoşlamıram. Müəyyən insanlar var ki, bəzi söhbətlərimi onlara danışa bilərəm.

**- Həyatda səhvləriniz çox olub?**

- Səhvsiz insan var ki? Başın ora-bura dəyə-dəyə formalaşırsan. Heç nə beşdəbeş olmur. O şeylər var ki, mən də istəməzdim eləyəm, amma eləmişəm. "Kaş ki"lər adama kömək eləmir. Gərək insan hər şeydən nəticə çıxarsın. Bir adam səhv bir iş görəndə onu özümə dərs hesab edirəm...

**Namiq MƏMMƏDLİ**